HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 may 2017-cı il
№009 (47)

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / “იენი იოლი” საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## GÜRCÜSTAN NÜMAYƏNDƏLƏRİ AZƏRBAYCAN VƏ TÜRKİYƏ TƏLİMLƏRİNİ MÜŞAHİDƏ EDİBLƏR



Gürcüstan Müdafiə Nazirliyinin briqada komandiri polkovnik Zurab Xviçia Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin növbəti birgə təlimlərini müşahidə edib.

“Yüksəksəviyyəli müşahidəçilər günü” çərçivəsində Gürcüstan, Azərbaycan və Türkiyə nümayəndə heyətləri hərbi təlimlərdə atışın gedişi ilə tanış olublar. Bu tədbir Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirlərinin əvvəllər keçirilmiş üçtərəfli görüşləri zamanı əldə olunmuş razılaşmaya əsasən keçirilib.

Yüksəksəviyyəli qonaqlar keçirilən təlimlər haqqında təlim yerinin maketi qarşısında məlumatlandırılıblar. Təlimlərdə iştirak edən şəxsi heyət və hərbi texnika ilə tanış olan qonaqlar yerinə yetirilən əməli vəzifələrin gedişini müşahidə ediblər.

Təlimlərdə iştirak edən Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin hissələri qarşıya qoyulan vəzifələrin öhdəsindən uğurla gəliblər.

Təlimlərin növbəti mərhələsinin başa çatmasından sonra qonaqlar şəxsi heyətlərlə tanış olublar. Təlimdə fərqlənən hərbi qulluqçulara mükafatlar təqdim olunub.

## AZƏRBAYCAN, TÜRKİYƏ VƏ GÜRCÜSTAN ARASINDA MEMORANDUM İMZALANACAQ



Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirləri üçtərəfli formatda əməkdaşlıq haqqında Memorandum imzalamağa hazırlaşır.

Məlumata görə, bu məsələ İstanbulda keçirilən Beynəlxalq Müdafiə Sərgisi çərçivəsində Türkiyə və Gürcüstan müdafiə nazirləri Fikri İşıq və Levan İzoriya arasındakı görüşdə müzakirə olunub. L. İzoriya sənədin mayın sonunda 3 ölkənin müdafiə nazirlərinin Batumidə keçiriləcək görüşündə imzalanacağını söyləyib. Memorandum müdafiə sahəsində regional əməkdaşlığın gücləndirilməsinə xidmət edəcək.

L. İzoriya bildirib: “Bizim Türkiyə müdafiə naziri ilə çox məhsuldar görüşümüz oldu. Biz on gün sonra Batumidə nazirlərin görüşünü keçirməyi planlaşdırırıq. Azərbaycanın müdafiə naziri də qatılacaq. Biz üçtərəfli əməkdaşlığımızın formatını müzakirə edəcəyik”.

## GÜRCÜSTANDA AVROPA MƏKTƏBİ AÇILACAQ

Gürcüstanda Avropa məktəbi açılacaq. Bu barədə Gürcüstanın baş naziri Georgi Kvirikaşvili Avropa İttifaqının Genişlənmə və Mehriban Qonşuluq Məsələləri üzrə komissarı Yohannes Xanla görüşdən sonra birgə mətbuat konfransında məlumat verib.

Baş Nazir Avropa Komissiyası ilə birgə Gürcüstanda regional əhəmiyyətli Avropa məktəbinin açılmasının nəzərdə tutulduğunu bildirib.

Georgi Kvirikaşvili deyib: “Bu ideya Yohannes Xana məxsusdur, buna görə mən ona xüsusi təşəkkür edirəm. Gələn ilin sentyabrından bu məktəb gənclərimizə yüksək keyfiyyətli təhsil almağa imkan verəcək. Bu məktəb gələcəkdə ölkəmiz üçün peşəkar ixtisaslı kadrların hazırlanmasının əsasını qoyacaq”.

## DONALD TRAMP GÜRCÜSTANIN BAŞ NAZİRİNİ QƏBUL EDİB



ABŞ prezidenti Donald Tramp mayın 8-də Vaşinqtonda səfərdə olan Gürcüstanın baş naziri Georgi Kvirikaşvili ilə görüş keçirib. Bu barədə Ağ Evin mətubat katibi Şon Spayser müntəzəm olaraq jurnalistlər üçün keçirdiyi brifinqdə məlumat verib.

O, Ağ Evdə Gürcüstanın baş naziri Georgi Kvirikaşvili və ABŞ-ın vitse-prezidenti Maykl Pens arasında danışıqların keçirildiyini təsdiqləyib. Spayser deyib: “Sonra baş nazir vitse-prezidentlə prezidenti salamlamaq üçün Oval kabinetə baş çəkib”. Tramla görüşün detalları barədə Spayser məlumat verməyib.

Gürcüstanın baş naziri isə İctimai televiziyanın efirində bildirib ki, ABŞ prezidenti Donald Tramp və vitse-prezident Mayk Pens onunla görüşdə ABŞ-ın Gürcüstana dəstəyini davam etdirəcəyini bəyan ediblər. “Donald Tramp və Mayk Pens ABŞ-ın Gürcüstanı dəstəkləməsi barədə aydın işarələr verdilər. Bu Gürcüstanın sonrakı inkişafı üçün, ölkəmizdə stabilliyin bərqərar olması üçün mühüm görüş idi” – Kvirikaşvili deyib.

## GÜRCÜSTANDA KONSTİTUSİYA DƏYİŞİKLƏRİNİN ÜMUMXALQ MÜZAKİRƏSİNƏ START VERİLDİ




Gürcüstan parlamenti ölkə əhalisini Konstitusiyada ediləcək düzəlişlərlə tanış edəcək təşkilat komissiyasını təsdiq edib. Komissiya bir səs əleyhinə olmaqla 80 səslə təsdiqlənib.

Doqquz nəfərin daxil olduğu komissiya parlament çoxluğu və müxalifət, qeyri-hökumət sektoru və ekspertlərin nümayəndələrindən təşkil olunub. Düzəlişlərin ümumxalq müzakirəsinə mayın 5-dən start verilib və müzakirələr iyunda başa çatacaq. Seçicilərin 200 min imzası ilə yanaşı bu müzakirələr ölkənin əsas qanununa yekun dəyişikliklərin daxil edilməsi üçün gərəkdir.

Xatırladaq ki, Dövlət Konstitusiya Komissiyası düzəlişlər layihəsi üzərində işini aprelin 22-də başa çatdırıb. Layihəni yalnız hakim partiyanın nümayəndələri imzalayıblar. Komissiyanın işində iştirak etməyə dəvət olunsalar da, müxalifət partiyaları onu imzalamaqdan imtina ediblər.

DEMOQRAFİK FƏLAKƏTİN YARATDIĞI ACI GERÇƏKLƏR 2

RƏHMƏT, BAĞIŞLANMA VƏ QURTULUŞ AYI – RAMAZAN 3

TÜRKİYƏ XARİCİ SİYASƏTİNİN YENİ CİZGİLƏRİ 4

DİL PROBLEMİMİZİN QAYNAQLARI 5

KOSALI MƏKTƏBİNDƏ GÜRCÜ DİLİNƏ HƏSR OLUNMUŞ BAYRAM TƏDBİRİ KEÇİRİLDİ 6

AĞ DABOKLU NAMİQİN HEKAYƏTİ 7



## DEMOQRAFİK FƏLAKƏTİN YARATDIĞI ACI GERÇƏKLƏR

Afiq MUXTAROĞLU
*amuxtaroglu@mail.ru*

**Dərd birdimi, ikidimi? – danışıb ürəyini boşaldasan. Dünyanın əhalisi həndəsi silsilə ilə artır, maddi nemətlərin artımı isə ədədi silsilə ilə artır. Və əhali artımı ilə maddi nemətlərin artımı arasında kəskin fərqi müəyyənləşdirmək üçün dərin elmi biliklərə malik olmağa da ehtiyac yoxdur. Azacıq müşahidə qabiliyyəti olan istənilən adam bu fərqi çətinlik çəkmədən ortaya çıxara bilər. Dünya demoqrafik partlayış, yəni əhalinin sayının təbii yolla kəskin şəkildə artması həddindədir kimi bir fikri səsləndirməyim də bu acı gerçəkliyi bir damcı dəyişmək iqtidarında deyil. İndi bu məsələni burada alayarımçıq qoyub, keçirəm ölkəmizin demoqrafik durumuna.**

Ölkəmizdə isə, əksinə, demoqrafik fəlakət yaşanır və ya biz bu fəlakətin astanasını çoxdan keçmişik. Bizdə əhalinin təbii artımında azalma müşahidə edilməkdəir. Əslində postsovet ölkələrinin bir çoxunda da bu problem yaşanmaqdadır. Postsovet məkanına daxil olan Latviya, Litva, Estoniya, Ermənistan, Belarus, Rusiya və Ukrayna kimi ölkələrdə əhalinin təbii artımının azalması tendensiyası müşahidə olunmaqdadır. Bu ölkələrin başbilənləri bunu fəakət kimi dəyərləndirib, çıxış yolları aramaqdadırlar. Gürcüstanda da artıq həyacan təbili çalmağa başlayıblar. Nədən ki, ölkəmizin əhalisini sayındakı azalma meyli bunu deməyə əsas verir. Son on il ərzində ölkə əhalisinin sayı nə az, nə çox 676 500 nəfər azalıb. Əgər Gürcüstanda demoqrafik durum qaydaya salınmasa, vəziyyət daha böhranlı şəkil ala bilər. BMT-nin əhali fondunun proqnozları da bunu deməyə əsas verir. Belə ki, vəziyyət dəyişməsə 2050-ci ildə ölkəmizin əhalisinin sayının 2 985 000 nəfərə enə biləcəyi proqnozlaşdırılır.

Hələ ki, sayımız 3 718 200 nəfərdir. Bu həddi qoruyub saxlamaq və önümüzdəki illərdə əhalinin təbii artımına nail olmaq üçün əsaslı addımların atılması vacibdir. Sosial-iqtisadi sahədə islahatlar sürətləndirilməli və intensiv xarakter almalıdır. Fəlakətdən yaxa qurtarmaq üçün əhalinin işlə təmin olunması, yəni işsizliyin ləğvi müstəsna rol oynaya bilər. Bundan başqa kənd əhalisinə xüsusi diqqət yetirməklə onların şəhərə axınının qarşısını almaq mümkündür. Ölkəmizdə ildən-ilə şəhər əhalisini sayında baş verən artım məhz dolanışıq ucbatından şəhərlərə axışan kənd əhalisinin hesabına baş verir. Son statistik məlumata görə Gürcüstan əhalisinin 57,2%-i şəhərlərdə yaşayır. Kənd əhalisi isə sürətlə azalır, boşalan kəndlərin sayı günbəgün artır. Bütün bunlar isə demoqrafik vəziyyətə təsirsiz ötüşmür.

Demoqrafik fəlakət bərabərində digər fəsadlar da gətirir. Ölkədən çıxıb gedənlərin sayında artım müşahidə edilir. Üstəgəl, gedənlərin böyük qismi əhali artımına böyük qatqıda buluna biləcək məhsuldar gənclərdir. Ölkəni tərk edən gənclərin çoxu isə kişi cinsindən olanlardır. Bu da cins kateqoriyası üzrə ölkə əhalisinin qeyri-mütənasibliyinə gətirib çıxarır. Yenə statistikaya müraciət edək. Hazırda Gürcüstan əhalisinin 1 781 500 nəfəri kişi və 1 936 700 nəfəri isə qadındır. Qadınlar sayca çoxdur, fərq göz qabağındadır. Bu gün ölkəmizdə qadın və kişilərin sayındakı qeyri-bərabərlik də məhz ölkəni tərk edənlərlə bağlıdır.

Demoqrafik fəlakətin doğurduğu digər bir fəsad da göz qabağındadır. Yaşlı əhalinin sayı artır, gənclərin sayında isə azalma müşahidə olunur. Bu balansın ciddi şəkildə pozulması danılmazdır. Yaşlılarla gənclər arasında fərq özünü kəskin şəkildə bürüzə verdikdə biz daha bir acı gerçəklə üz-üzə qalmağa məcburuq. Bu fərq əhalinin qocalma prosesinin fəal fazaya daxil olması barədə xəbərdarlıqdır.

**Demoqrafik fəlakətin azarı bir deyil, iki deyil, sayıb canını qurtarasan, ucundan-qulağından danışıb məsələni çürüdəsən. Qurdaladıqca qurdu çıxır, çözələdikcə çözələnir. Ancaq mən yazım boyu demoqrafik fəlakətlə ilgili ən önəmli, təxirəsalınmadan həll edilməli məqamlara daha çox diqqət yetirməyə çalışdım. Və deyim ki, problemin ən təhlükəli təzahürünü sonda vurğulamağın daha doğru yol olduğunu düşündüm. Əgər bizim səlahiyyətlilərimiz demoqrafik fəlakət prosesinə vaxtında müdaxilə etməsələr, bu vəziyyətdən çıxış üçün ağlabatan bir layihə ortaya çıxarmasalar mütəxəssislərin "demoqrafik anneksiya" adlandırdıqları sürprizlə qarşılaşmamız qaçılmaz olacaq və yaranmış boşluğu yaxından-uzaqdan gələnlərin doldurmasının qarşısını kəsmək də mümkünsüz hal alacaq.**

## ÜMUMDÜNYA TURİZM TƏŞKİLATINA GÜRCÜ DİPLOMAT BAŞÇILIQ EDƏCƏK



Zurab Pololikaşvili 2018-2021-ci illərdə UNWTO beynəlxalq turizm təşkilatının baş katibi olacaq.

Baş katib seçkiləri UNWTO-nun içraçı şurasının Madriddə keçirilən 105-ci sessiyasında baş tutub.

UNWTO-nun fəaliyyətdə olan baş katibi Taleb Rifainin səlahiyyəti 2018-ci ildə başa çatır. O, iki dəfə təşkilatın baş katibi seçilib.

Gürcüstanın baş naziri Georgi Kvirikaşvili artıq Pololikaşvilini təbrik edib. O, qeyd edib ki, Gürcüstanın tarixi ərzində BMT sistemində belə yüksək ranqda rəsmi şəxs olmayıb.

Pololikaşvili 1977-ci il yanvarın 12-də Tbilisidə doğulub. Gürcüstan Texniki Universitetinin beynəlxalq bank işi fakultəsini bitirib, magistr dərəcəsini Madriddə alıb.

2001-2005-ci illərdə TBC Bank-da aparıcı vəzifələr tutub, daha sonra bir il Gürcüstan xarici işlər nazirinin müavini olub. 2006-2009-cu illərdə Gürcüstanın İspaniyada fövqaladə və səlahiyyətli səfiri olub. Sonra bir il Gürcüstanın sabit inkişaf və iqtisadiyyat naziri işləyib. 2010-cu ildə TBC Bank-ın vits-prezidenti vəzifəsində çalışıb. 2011-2012-ci illərdə Tbilisinin "Dinamo" futbol klubunun direktoru olub. 2012-ci ildə yenidən Gürcüstanın İspaniyada səfiri təyin edilib.

İngilis, ispan, fransız, rus və yapon dillərini bilir. Ailəlidir, üç uşaq atasıdır.

## GÜRCÜSTANA GƏLƏN TURİSTLƏRİN SAYI ƏHALİNİN SAYINDAN ÇOXDUR

Britaniyanın Telegraph nəşri turistlərin yerli əhalidən çox olduğu 51 ölkənin siyahısını nəşr edib. Gürcüstan bu siyahının 37-ci pilləsində yerləşib. Nəşrin məlumatına görə, Gürcüstanda hər sakinə orta hesabla 1,4 turist düşür.

Gürcüstan Milli Turizm Agentliyində qeyd ediblər ki, Telegraph nəşri siyahını tərtib edərkən 2015-ci ilin məlumatlarına əsaslanıb. Belə ki, həmin il Gürcüstana 5,9 milyon beynəlxalq səyahətçi səfər etmişdi. 2016-cı ildə isə onların sayı 6,3 milyon nəfərdən çox olub.

Telegraph-ın reytinqində birinci yeri Andorra tutub. Bu ölkədə hər sakinə düşən turistlərin sayı 33 nəfər olub.

## APREL AYINDA GÜRCÜSTANA 500 MİNDƏN ÇOX ADAM SƏFƏR EDİB

Aprel ayında Gürcüstana 510 594 nəfər gəlib. Gürcüstan DİN-inin məlumatına görə, bu, 2016-cı ilin müvafiq dövrünün göstəricilərindən 10,2% çoxdur. Bütövlükdə yanvar-aprel aylarında Gürcüstana 1 776 719 nəfər səfər edib, bu, 2016-cı ilin ilk dörd ayının göstəricilərindən 11,1% artıqdır.

Aprel ayında gələnlərin 222 622 nəfəri turist olub. Bu isə ötən ilin aprelindəkindən 29,7% yüksək göstəricidir. 107 865 nəfər Gürcüstandan tranzit kimi istifadə edib. Bu isə ötən ilin analoji dövründəkindən 0,3% çoxdur. Digər məqsədlərlə səfər edənlərin sayında isə 2,1% azalma baş verib.

Keçən ilin müvafiq dövrü ilə müqayisədə Ermənistandan gələnlərin sayında 13,2% artım qeydə alınıb. Azərbaycandan gələnlərin sayında isə 7,1% artım baş verib. Türkiyədən gələnlərin sayı isə 19,25% azalıb. Rusiyadan gələnlərin sayı 16,5%, Ukraynadan gələnlərin sayı 27,2%, İrandan gələnlərin sayı isə 183,9% artıb.

## GÜRCÜSTAN İÇMƏLİ SU İXRACINA BAŞLAYA BİLƏR



İqtisadiyyat məsələləri üzrə ekspert, "Gürcü iqtisadi möcüzəsi" layihəsinin müəllifi Paata Qiorqadze Gürcüstanın təbii suyun sənaye üsulu ilə istehsalını təşkil edərək, onu dünya bazarına çıxaran ölkəyə çevrilməli olduğunu vurğulayıb.

Paata Qiorqadze Tbilisi beynəlxalq mətbuat mərkəzində "Gürcüstanda təbii ehtiyatların rasional istifadəsi" mövzusunda keçirilən dəyirmi masa çərçivəsində Gürcüstanda içməli su emalı ilə bağlı fikrini səsləndirib.

"Su dünya əhəmiyyətli təbii ehtiyatdır. Sürətli sosial-iqtisadi inkişaf məqsədilə Gürcüstan içməli suyun sənaye üsulu ilə emalını həyata keçirən, hazır məhsulu dünya bazarına çıxaran uğurlu ölkələrdən birinə çevrilməlidir. Yüksək potensial və yüksək keyfiyyət buna imkan verir. Su hamıya gərəkdir. Gürcüstan şirin su kimi böyük sərvətə malikdir" – Paata Qiorqadze deyib. "Dəyirmi masa"da professorlar Zaur Sixelaşvili və İrakli Mikeladze də iştirak ediblər.

Gürcüstan Milli Statistika Xidmətinin məlumatına görə, 2017-ci ilin yanvar-mart aylarında Gürcüstandan 22 milyon dollarlıq mineral su ixrac olunub ki, bu da ötən ilin göstəricilərindən 3,9% çoxdur. Alimlər mineral su istehsalının şəxsi biznes olduğunu vurğulayıblar. Adi içməli su emalı ilə dövlətin məşğul olub, ölkənin milli sərvətinə çevirməli olmasına diqqət çəkiblər. Bu məhsulun ixracından əldə olunan qazancı hər bir Gürcüstan sakini hiss etməlidir.

## 10 İL ƏRZİNDƏ GÜRCÜSTAN ƏHALİSİNİN SAYI 676 500 NƏFƏR AZALIB

Gürcüstan Milli Statistika Xidmətinin yeni məlumatları yenidən ölkə əhalisinin təhlükəli şəkildə azalma tendensiyasını əks etdirir.

"Sakstat"ın son araşdırmalarında Gürcüstan əhalisinin son on il ərzində 676 500 nəfər azalmasından bəhs olunur. Araşdırmada əhalinin sayının azalmasına 2016-cı ildə təbii artımın azalmasının və xarici mühacirət saldosunun mənfi balansının təsir etdiyi bildirilir.

2007-ci ilin yanvarında Gürcüstanda yaşayanların sayı 4 394 700 nəfər idi. 2017-ci ilin yanvarında isə bu rəqəm 3 718 200 nəfər (1 781 500 kişi və 1 936 700 qadın) olub.

Ötən illə müqayisədə 0,1% azalma qeydə alınıb.

Ötən illə müqayisədə ölkənin kişi əhalisinin sayı 0,1% artaraq 1 781 500 nəfər, qadınların sayında isə 0,2% artım baş verib və onların sayı 1 936 700 nəfər təşkil edib.

Məlumatda şəhər əhalisinin 57,2% və ya 2 128 600 nəfər, kənd əhalisinin isə 42,8% və ya 1 589 600 nəfər olduğu bildirilir. Paytaxt Tbilisinin əhalisi 1 114 600 nəfər olub.

Araşdırma Abxaziya və Cənubi Osetiyanın işğal olunmuş ərazilərindən (13 min kv.km. və ya 18%-ə yaxın ərazi) savayı, ölkənin bütün ərazisini əhatə edir.

## GÜRCÜSTANIN KƏND ƏHALİSİ SÜRƏTLƏ AZALIR



120 il əvvəl, yəni 1897-ci ildə Gürcüstan əhalisi 1,9 milyon nəfər təşkil edirdi və bunun da cəmi 16%-i şəhərlərdə yaşayardı, kənd əhalisinin payı isə 84% idi.

Gürcüstanın şəhər əhalisi 1932-ci ildə 22%-ə, 1939-cu ildə 30%-ə, 1959-cu ildə 42%-ə, 1979-cu ildə 52%-ə, 1989-cu ildə isə 56%-ə yüksəlmişdi. Məhz bu dövrdə ölkə əhalisinin sayı ötən 20 il ərzində maksimum həddə, yəni 5,4 milyon nəfərə çatmışdı.

2002-ci ilin siyahıyaalınmasına görə Gürcüstanın şəhər əhalisinin sayı 52%-ə, 2014-cü ilin son siyahıyalınmasına görə isə 58%-ə yaxın olub. Bu, rəsmi göstəricidir, əslində bu göstərici bir qədər yüksəkdir.

Son illərdə əhali geriyə baxmadan kəndi tərk edir, şəhər əhalisi, əsasən də paytaxtın əhalisi ildən-ilə artır. Ölkə əhalisinin təxminən üçdə biri paytaxtada yaşayır.

2014-cü ilin siyahıyalaınmasına görə, ölkədə 3633 kənd qeydə alınıb və bu kəndlərdə 1 590 000 nəfər adam, daha doğrusu əhalinin 42%-i yaşayır.

Bununla belə 232 kəndin əhalisi yoxdur, bu kəndlər Gürcüstan xəritəsində formal olaraq mövcuddur.

157 kənddə 5 nəfərədək, 98 kənddə 5-dən 10-dək, 828 kənddə 11-dən 100-dək, 503 kənddə 100-dən 200-dək, 893 kənddə 200-dən 500-dək, 517 kənddə 500-dən 1000-dək, 271 kənddə 1000-dən 2000-dək, 86 kənddə 2000-dən 3000-dək adam yaşayır.

Müqayisə üçün qeyd edək ki, Tbilisinin təkcə Qldani-Nadzaladevi rayonunda 325 000 nəfər yaşayır.

## GÜRCÜSTANDA ORTA TƏBƏQƏ 6-7 İL ƏRZİNDƏ FORMALAŞACAQ

Parlamentin səhiyyə komitəsinin rəhbəri Otar Zoidze deyib: "Gürcüstanda orta təbəqə təxminən 6-7 il ərzində formalaşacaq".

Statistik məlumata görə, Gürcüstanda gəliri 40 000 laridən çox olan 32 000 nəfər yaşayır, bu da əhalinin 0,8%-ini təşkil edir. Bu çox aşağı göstəricidir, ölkədə orta sinfin yoxluğunu nümayiş etdirir.

Otar Zoidzenin sözlərinə görə, keçmiş hökumətin zamanında artım yüksək olsa da, yoxsul əhalinin sayı artıb və buna uyğun olaraq iqtisadi artım iqtisadiyyatın ayrı-ayrı sahələrinə, xüsusilə də məşğulluq səviyyəsi aşağı olan sahələrə aid olub.

O, deyib: "Bizim siyasətimiz ondan ibarətdir ki, iqtisadi artım əhalinin bütün təbəqələrinə aid olsun. 40 000 laridən artıq gəliri olan 32 000 nəfərə gəlincə, ehtimal ki, bu rəqəm dəqiq deyil. Yəqin ki, belə adamlar bir qədər çoxdur. Hazırda söhbət əmlakını bəyan edənlərdən gedir, elələri də var ki, bunu etmirlər. Məsələn, bir çoxları mənzillərini əcnəbilərə yaxşı qiymətə kirayəyə verirlər, onların adı heç yerdə çəkilmir. Ekspertlərin qiymətləndirməsinə görə, Gürcüstanda belə adamlar əhalinin 4%-ini təşkil edir. Bu da azdır, Gürcüstan kimi ölkələrdə bu göstərici 10-15% səviyyəsində tərəddüd edir".

Onun sözlərinə görə, hökumətin hədəfi məhz illik gəliri 40 000 lari olan vətəndaşların sayının 10-15% səviyyəsinə yüksəldilməsidir.

Zoidze vurğulayıb: "Bunun əsas şərti ÜDM-in



ən azı iki dəfə artırılmasıdır. Şərqi Avropa ölkələrinin indiki səviyyəsinə çatmaq üçün Gürcüstana azı 5-6 il vaxt lazımdır. Bu, gəlirin vergidən azad edilib yenidən sərmayə qoyulmasına yönəldilməsini nəzərdə tutan eston modelinin fəaliyyəti ilə mümkündür".

Onun sözlərinə görə, iqtisadi artım hazırkı sosial yönümlü büdcə ilə heç cür ziddiyyət təşkil etmir.

Komitə sədri deyib: "Büdcə ona görə sosial yönümlüdür ki, əhalinin xiyli hissəsi özünü təmin edə bilmir. Məhz bu cür büdcə hökumətə belə vətəndaşların səhiyyə kimi əsas xidmətlərini ödəməyə imkan verir. Əgər büdcə sosial yönümlü olmasa, onlar dəhşətli xərclərlə üzləşərlər, bu xərclər onlar üçün ağır yük olar. Dövlət siyasətinin məqsədi ölkədə yüksək yoxsulluq səbəbindən mövcud olan sosial riskləri azaltmaqdır".



## RƏHMƏT, BAĞIŞLANMA VƏ QURTULUŞ AYI – RAMAZAN

Hacı BƏKİROĞLU
*kafkasli@mail.ru*

**Tarixdə elə anlar, elə günlər vardır ki, bu anın və günün dəyərini bilmək və dəyərləndirmək lazımdır. Qarşıdan gələn Ramazan ayı da məhz belə anlardan biridir. Çünki ramazan ayı Uca Allahın Qurani Kərimdə bildirdiyi, həzrəti peyğəmbərin hədislərdə müjdələdiyi, ən əsası da Qurani Kərimin nazil olduğu mübarək qədr gecəsini içinə almaqdadır.**

Ramazan ayı İslam dinində mübarək və müqəddəs sayılan 3 aydan biridir.

Üç mübarək aydan sonuncusu və bəlkə də yaxşı dəyərləndirildiyi təqdirdə ən fəzilətlisi olan, eyni zamanda tövbə və istiğfar gecəsi olan qədr gecəsini də içinə alan bu müqəddəs aydan daha xeyirli bir ay ola bilərmi?

Dəyəri bu qədər böyük olan bir ayı yalnız gündüzləri ac qalıb iftar vaxtı gəldiyində isə doyunca yeyərək keçirməyə çalışanlar, ramazan ayının əhəmiyyətini anlamayan qafillərdir. Onların etdikləri yalnız bədənlərini ac saxlamaqdır. Əgər ramazan ayının fəziləti nədir deyə soruşacaq olsaq sualımıza imam Rəbbani Həzrətləri bu şəkildə cavab verir: "Mübarək Ramazan ayı, çox şərəflidir. Bu ayda qılınan nafilə namaz, zikr, sədəqə və bütün nafilə ibadətlərə verilən savab, başqa aylarda edilən fərzlər kimidir. Bu ayda edilən bir fərz, başqa aylarda edilən yetmiş fərz kimidir. Bu ayda bir oruclуya iftar verənin günahları bağışlanar. Cəhənnəmdən azad olar. O, oruclunun savabı qədər, ayrıca buna da savab verilər. O, oruclunun savabı heç azalmaz".

Ramazan ayının çox qiymətli olması Yaradanın o aya verdiyi dəyərdən irəli gəlir. Bu ayda insanlığa son ilahi kitab endirilməyə başlanmışdır. Qaranlıqlar içərisində qalan və cəhalət dövrünü yaşayan insanoğlu Quranın enməsiylə qızıl dövrünü yaşamağa başlamışdır. Səhabələr Əfəndimiz tərəfindən göydə parlayan ulduzlara bənzədilmişdir. Bu dəyişimin yaşanmasının ana ünsürü isə Qurani Kərimdir. Rəbbimizin Ramazan ayına verdiyi qiymətin göstəricisi olaraq bu ayəti kərimanı yenidən xatırlayaq. Qurani Kərimdə Ramazan ayı üçün belə buyurulmaqdadır:

"(O sayılı günlər, Ramazan ayı), insanlar üçün bir hidayət rəhbəri, doğru yolun və haqq ilə batili bir-birindən ayırmanın açıq-aşkar dəlilləri olaraq Quranın özünün də endirildiyi Ramazan ayıdır. Elə isə içinizdən kim bu aya çatsa onu orucla keçirsin."

Quran bir aya on bir aydan daha çox dəyər qatmışdır. O ayı (ramazan ayını) on bir ayın sultanı etmişdir. Yenə Quran bir günü min aydan daha xeyirli etmişdir. Quranın enməyə başladığı Qədr gecəsi min aydan daha xeyirlidir. Qurani Kərimdə Qədr gecəsi haqqında belə buyurulmaqdadır:

"Şübhəsiz, biz onu (Quranı) Qədr gecəsində endirdik.

Qədr gecəsinin nə olduğunu sən nə biləcəksən!

Qədr gecəsi min aydan daha xeyirlidir.

Mələklər və Ruh (Cəbrayıl) o gecədə, Rəblərinin icazəsiylə hər cür iş üçün yerə enər.

O gecə, dan yerinin ağarmasına qədər bir sağlamlıqdır."

Qədr gecəsi Qurani Kərimin yalnız dünyaya endirildiyi gecə deyil. Eyni zamanda Peyğəmbər Əfəndimizin son Peyğəmbər olaraq insanlığa göndərildiyi ilk gecədir. Ramazan ayı bu səbəblə Peyğəmbər ayıdır.

Canlı Quran olan Peyğəmbərimizin həyatı bizə ən doğru yolu göstərməkdədir. Yazılı olan bir mətnin həyata necə keçiriləcəyinin cavabı Peyğəmbərimizdədir. Qurana uyğun bir həyat arzu edənlər üçün Rəhbər Peyğəmbərimizdir. Peyğəmbər Əfəndimizin həyatını həyatına köçürmək istəyənlər Qurana baxmalıdırlar. Ətlə dırnaq necə ki, bir-birindən ayrılmazdır, Quran və Sünnə də eləcə bir-birindən ayrılmaz.

Belə ki, Ramazan gecəsiylə, gündüzüylə mənəvi dünyamızı işıqlandıran, gözəlliklərlə bəzənmiş, yuxarıda da qeyd etdiyimiz kimi qiymətləndirildiyi təqdirdə fəziləti bol olan bir aydır. Möminin sərmayə yığma mövsümüdür. İbadətlərimizin və ömürümüzün bərəkətləndirildiyi rəhmət ayıdır.

**Ramazanın əvvəli rəhmət, ortası məğfirət (bağışlama), sonu da cəhənnəmdən qurtuluşdur.**



## TÜRKİYƏ XARİCİ SİYASƏTİNİN YENİ CİZGİLƏRİ

Sahib MUSTAFA
*sahib1975.sm@gmail.com*

**Türkiyədə keçirilən son referendumdan sonra bir zamanlar sıx müttəfiqlik bağları olan Türkiyə-Avropa münasibətlərində sürətli eniş davam etməkdədir. Ümumxalq səsverməsindən "xeyr" çıxmasına ümidləri az olan Avropa-ABŞ Ankaraya qarşı "b", "c" və digər ardıcıllıqdaki planlarını dövriyyəyə soxmaqdadırlar. Keçən il Türkiyədə dövlət çevrilişinə cəhddə şübhəli bilinən bir neçə yüksək rütbəli zabitlərə sığınacaq verən Yunanısatanın taktikasını Almaniya da təkrarlamaqdadır. Cinayət tərkibli əməllərini sübut və dəlillərlə isbat edən sənədlərin alman rəsmilərinə təqdim edilməsinə baxmayaraq, "FETÖ" ilə bağlılığı olan şübhəlilərə bu ölkədə sığınacaq verilməsi Almaniya-Türkiyə münasibətlərinin indiki durumundan xəbər verir.**

Ümumiyyətlə, Türkiyənin də tam mərkəzində olduğu indiki beynəlxalq münasibətlərdə təşəbbüs Ankaranın əlindədir. Belə bir iddianı irəli sürməyə ortada olan bir sıra faktlar imkan verir. İlk növbədə, Türkiyənin Rusiya ilə artan dinamika üzrə olan əlaqələri danılmazdır. Türkiyənin Rusiyadan C-400 tipli zenit-raket kompleksnin alnması üçün danışıqlara başlaması Qərb dünyasını narahat etməyə bilməz. NATO Türkiyənin Şimali Atlantika Alyansına aid olmayan ölkələrdən silah almaması üçün hər zaman təzyiqlər göstərmişdir. Ona görə də, Qərb Ankaranı bu istiqamətdəki planlarından daşındırmaq niyyətindədir. Lakin, Türkiyə son zamanlar hərbi qüdrətini tam nümayiş etdirə bilməyən NATO-ya məhəl qoymadan özünün maraqlarına uyğun şəkildə müxtəlif ölkələrlə ticari-iqtisadi əlaqələr qurmaqdadır. Türkiyə uzun illərdən sonra qeyri-NATO ölkəsi ilə hərbi-ticarət müqaviləsi bağlayaraq NATO-nun təzyiqlərini azaltmış olacaq və Qərb dünyasını Ankara ilə "türk dili"ndə danışmağa məcbur edəcəkdir.

Türkiyə ilə münasibətlərdə ABŞ daha çox avropalı müttəfiqlərinin yanında qərar tutub. Başqa sözlə, okeanın o tayından da Ankara üçün təzyiq "porsiya"sı özünü çox gözlətmədi. Son günlərdə Vaşinqtonun PYD-yə silah ötürməsi deyilənlərin isbatıdır. Bir terror təşkilatına qarşı digər terrorçu qruplaşmanı silahlandırmaq yalnız "amerikansayağı" terrorla mübarizə metodu ola bilər. Digər tərəfdən, Fətullah Gülənin Ankaraya təslim edilməsi üçün Türkiyə Ədiliyyə naziri Bəkir Bozdağın amerikalı həmkarı Jeff Sessionsla apardığı danışıqlardan müsbət nəticə əldə olunmasına inanmaq çətindir. Gülənin Türkiyəyə təslim edilməsi həm Vaşinqton üçün Ankaraya təzyiq vasitələrinin birindən özünü məhrim etmək, həm də prezident Ərdoğanın nüfuzunun artması anlamına gəlir. Odur ki, FETÖ qruplaşmasının liderinin Türkiyəyə ekstradisiyası gözlənilmir. ABŞ Güləni sonadək qoruyacaqdır. Hətta, bir çox Qərb mətbuatnda Gülənin Cənubi Amerika ölkələrinin sakit güşələrinin birində yerləşdirilməsi haqqında söz-söhbətlər də gedir. "Biz Güləni sizlərə təslim etmək istəyirdik, lakin çox təəsüff ki, o, Braziliyaya və ya Argentinaya qaçmışdır" – Vaşinqtonun Ankaraya verəcəyi ən yaxşı cavab isə belə olacaqdır.

**Ərdoğan Avropadan gələn bütün təhdidlərə Türkiyədən tutarlı cavab alacaqlarını bildirdi. O, Avropa Birliyinin Türkiyə üçün yeni şərtləri açıqlamaması halında Qərb dünyasına "əlvida" deyəcəklərini vurğuladı. Bu isə Moskvaya "mərhaba" anlamına gəlir. Məsələ odur ki, get-gedə AB ilə Türkiyə arasında böhran dərinləşməkdə davam edəcəkdir. Avropa Birliyinin Türkiyə üzrə məruzəçisi Kati Pirinin də Brüssellə Ankara arasında münasibətlərin tarıma çəkildiyini qeyd etməsi məsələnin ciddiyyətindən xəbər verir və Türkiyə tərəfini güzəştə getməyə dəvət edir. Lakin, Qərbin "təsir orbiti"ndən çıxma yolunda müəyyən məsafə qət etmiş Türkiyənin və onun rəhbərliyinin Avropaya güzəştə gedəcəyini söyləmək çətindir. Əksinə, Avropa Türkiyə qarşısında götürdüyü öhdəliklərdən boyun qaçırır və Ankaranı Moskva ilə bütün əməkdaşlıqdan çəkindirməyə təhrik edir. Geosiyasi baxımdan düşmənlərlə əhatə olunmuş Türkiyə çox mürəkkəb coğrafiyada yerləşir və onun əzmkar siyasət yürtməkdən başqa çıxış yolu da yoxdur.**

## MAKRON FRANSANIN YENİ PREZİDENTİ ELAN OLUNUB



Mayın 14-də Fransa Konstitusiya Şurasının sədri Loran Fabius Emmanuel Makronu Fransanın səkkizinci prezidenti elan edib.

Bundan əvvəl isə Yelisey sarayında prezident postunu tərk edən Fransua Ollandla vida mərasimi keçirilib.

Emmanuel Makron və Fransua Oland arasında prezident kabinetində vida görüşü 25 dəqiqə planlaşdırılsa da, 1 saatdan çox davam edib. Daha sonra isə E. Makron və F. Olland bir-birinə xoş sözlər deyərək, bir-birinin əlini sıxıb. E. Makron F. Olandı avtomobilə qədər müşayiət edib. Bu, protokola uyğun olaraq sabiq prezidentə hörmətin ifadəsidir.

## ÇERNOQORİYA NATO-NUN 29-CU ÜZVÜ OLDU

NATO-nun 28 üzv-ölkəsi Çernoqoriyanın alyansa daxil olması haqqında protokolu təsdiqləyib. Xəbəri Çernoqoriya hökuməti yayıb. "Daxil olma haqqında protokol təsdiqlənib. Var olsun bütün müttəfiqlər və tərəfdaşlar!" – xəbərdə bildirilir.

Çernoqoriya parlamenti aprel ayında ölkənin Şimali Atlantika alyansına daxil olması barədə səsvermə keçirmişdi. Müvafiq qanun layihəsinin qəbul edilməsinə 81 deputatdan 46-sı səs vermişdi. Son aylar parlamentin iclaslarını boykot edən müxalifət səsvermədə iştirakdan boyun qaçıraraq, parlament binası qarşısında etiraz aksiyası keçirirdi.

Bir qədər əvvəl Çernoqoriyanın baş naziri Duşko Markoviç iyunun 5-də ölkənin rəsmi şəkildə NATO-nun 29-cu üzvü olacağı barədə məlumat vermişdi.

## ANGELA MERKEL: İORDANİYA «İNCİRLİK» ÜÇÜN ALTERNATİV OLA BİLƏR

"İncirlik aviabazasına alternativ axtarmaq məcburiyyətindəyik". Bu sözləri Almaniya federal kansleri Angela Merkel Türkiyənin bu ölkənin deputatlarının "İncirlik" hərbi bazasında olan Almaniya hərbçilərinə baş çəkmələrinə icazə verməməsinə münasibət bildirərkən deyib. O, qeyd edib ki, İordaniya "İncirlik" üçün alternativ ola bilər.



Ankaranın bu addımı atmasına səbəb kimi Almaniyanın Türkiyədə "Fətullahçı Terror Təşkilatı"na üzv olmaqda ittiham edilən türk hərbçilərə sığınacaq verməsi göstərilir. Xatırladaq ki, bu, artıq Türkiyə ilə Almaniya arasında "İncirlik" bazası ilə bağlı yaşanan ikinci böhrandır. Keçən il Almaniya Bundestaqının uydurma "erməni soyqırımı"nı tanımasından sonra da Türkiyə alman millət vəkillərinin "İncirlik" hərbi bazasını ziyarət etməsinə icazə verməmişdi.

Onu da qeyd edək ki, "İncirlik" aviabazası Türkiyənin Adana vilayəti ərazisində yerləşir və həm Suriyaya, həm də İraqa yaxındır. 1951-ci ildə inşasına başlanan "İncirlik hərbi bazası" 1954-cü ilin dekabrında Türk Silahlı Qüvvələrinin və ABŞ Hava Qüvvələrinin birgə istifadə etmələri məqsədilə açılıb.

## AVROPA İTTİFAQI UKRAYNA ÜÇÜN VİZANI LƏĞV ETDİ

Avropa İttifaqı Şurası mayın 11-də Ukrayna vətəndaşlarının Şengen zonası ölkələrinə getmələri üçün vizasız rejimin tətbiq olunmasını təsdiqləyib. Mayın 17-də Strasburqda təntənəli şəkildə müvafiq qanunvericilik aktı imzalanacaq.

Bundan sonra ukraynalılar üçün vizanın ləğv olunması haqqında qərarı Avropa parlamentinin sədri və Aİ-yə sədrlik edən Maltanın nümayəndəsi imzalamalıdır. Yalnız bundan sonra bu qərar Aİnin rəsmi xəbərlərində dərc olunacaq və 20 gündən sonra Ukrayna vətəndaşları Avropa İttifaqına vizasız səfər edə biləcəklər.

Vizasız rejim Ukrayna vətəndaşlarının Şengen zonası ərazisində sərbəst hərəkət etmələrini nəzərdə tutur. Ukraynalılar vizasız Avropanın 30 ölkəsində yarım il ərzində 90 gün qala bilərlər.

Vizasız rejim Ukrayna vətəndaşlarına Avropa İttifaqı ölkələrində işləmək hüququ vermir. Vizasız rejimdən turizm, biznes, mədəni tədbirlərdə iştirak etmək, yaxınlara və qohumlara baş çəkmək üçün istifadə etmək olar.

Xatırladaq ki, analoji vizasız şərait Gürcüstan üçün martın 28-də qüvvəyə minib.

## RUSİYA ALİ MƏHKƏMƏSİ ÜAK-IN QEYDİYYATINI LƏĞV EDİB

Rusiya Federasiyası Ali Məhkəməsində Ümumrusiya Azərbaycan Konqresinin (ÜAK) qeydiyyatının ləğv edilməsi barədə Rusiya Ədliyyə Nazirliyinin iddiası üzrə proses davam etdirilib.

Ali Məhkəmə Ədliyyə Nazirliyinin iddiasını təmin edərək, ÜAK-ın qeydiyyatının ləğv olunması barədə qərar verib.

ÜAK-ın prezidenti Fazil Qurbanov verdiyi açıqlamada bu qərarı ədalətsiz adlandırıb. O, apellyasiya şikayəti verəcəklərini bildirib.

## DÖVLƏT QULLUQÇULARINA 12 DƏRƏCƏ VERİLƏCƏK

2017-ci il iyulun 1-dən hökumətin "Dövlət qulluqçularına çinovnik dərəcələrinin verilməsi qaydası haqqında" qərarı qüvvəyə minəcək. Sənədə əsasən, dövlət qurumlarında çalışanlara 1-dən 12-dək dərəcələr veriləcək və onlar bu dərəcələr üzrə müvafiq əlavələr alacaqlar.

Çinovnik dərəcələri:

Dərəcə – üçüncü dərəcəli ictimai xidmət referenti

Dərəcə – ikinci dərəcəli ictimai xidmət referenti

Dərəcə – birinci dərəcəli ictimai xidmət referenti

Dərəcə – üçüncü dərəcəli ictimai xidmət məsləhətçisi

Dərəcə – ikinci dərəcəli ictimai xidmət məsləhətçisi

Dərəcə – birinci dərəcəli ictimai xidmət məsləhətçisi

Dərəcə – üçüncü dərəcəli məsləhətçi

Dərəcə – ikinci dərəcəli məsləhətçi

Dərəcə – birinci dərəcəli məsləhətçi

Dərəcə – dövlət məsləhətçisi

Dərəcə – birinci dərəcəli dövlət məsləhətçisi

Dərəcə – həqiqi dövlət məsləhətçisi,

Dəyişikliyin məqsədi:

Çinovnik dərəcəsi çinovnikin peşəkar bilik və təcrübəsinin səviyyəsini müəyyənləşdirir. Dövlət qulluqçusuna çinovnik dərəcəsinin verilməsi motivasiyanın yüksəldilməsi, maddi rifahın yaxşılaşdırılması və dövlət xidmətinin stabilliyinin təmin edilməsi məqsədi daşıyır.

Dövlət qulluqçularına dərəcə verilməsi qaydası:

Çinovnik dərəcəsi qulluqçuya çinovnik qiymətlərinin nəticələri üzrə verilir:

Birinci dərəcədən altıncı dərəcə də daxil olmaqla ən yaxşı qiymət üzrə 2 ildə bir dəfə, yaxşı qiymət üzrə minimum 3 ildə bir dəfə.

7-ci dərəcədən 12-ci dərəcə də daxil olmaqla ən yaxşı qiymət üzrə ildə bir dəfə, yaxşı qiymət üzrə minimum 2 ildə bir dəfə.

Sınaq müddəti ərzində sınaq müddəti təyin olunmuş qulluqçuya çinovnik dərəcəsi verilmir.

Qərar çinovnik üçün "dərəcəyə görə əlavə" nəzərdə tutur, lakin nə bu qərarda, nə də "İctimai xidmətdə ödəmə haqqında" qanunda əlavənin miqdarı göstərilmir.

2017-ci ilin büdcəsinə görə Gürcüstanda 115 000 dövlət qulluqçusu var. Hal-hazırda onların hansı hissəsinə hansı dərəcənin veriləcəyi bəlli deyil. Həmçinin bu çinovniklərin nə qədər əlavə alacağı da məlum deyil.

Hazırladı: Afayət AFİQ

## VƏTƏNDAŞLAR ƏDLİYYƏ EVLİRİNDƏ MÜXTƏLİF ARAYIŞLAR ALA BİLƏCƏKLƏR

Mayın 3-dən vətəndaşlar məhkəməyə düşmə haqqında arayışı yalnız DİN-in Xidmət Agentliyindən deyil, həm də Ədliyyə Evlərindən ala bilirlər. Xidmət Agentliyi və Ədliyyə Evləri qarşılıqlı əməkdaşlıq barədə müvafiq razılaşma imzalayıblar.

Bu razılaşma əsasında 2017-ci ildə Ədiliyyə evlərinin filiallarında DİN-in Xidmət Agentliyinin servislərinin mərhələlərlə tətbiqinə başlanılacaq. Ədliyyə evlərinin filiallarında sürücülük vəsiqəsinin yenidən bərpası, nəqliyyat vasitələrinin qeydiyyatı haqqında şəhadətnamənin bərpası həyata keçiriləcək, habelə nəqliyyat vasitələrinin vəziyyəti haqqında, silahın hüquqi vəziyyəti haqqında, Gürcüstanın dövlət sərhədlərinin keçilməsi haqqında arayışın alınması mümkün olacaq.

## GÜRCÜSTAN İKİLİ VƏTƏNDAŞLIĞA İCAZƏ VERİR

Konstitusiya dəyişiklikləri layihəsində deputat Salome Zurabaşvilinin təklifi nəzərə alınıb. Belə ki, başqa ölkənin vətəndaşlığı alındığı təqdirdə, Gürcüstan vətəndaşlığı avtomatik olaraq itirilməyəcək, onun saxlanması mümkün olacaq. Artıq layihədə Gürcüstan vətəndaşı eyni vaxtda başqa ölkənin vətəndaşı ola bilməz iddiası yoxdur.

Hüquq məsələləri üzrə parlament komitəsinin sədr müavini David Matikaşvili deyib: "Status-kvonu saxlamaq üçün hansı prosedurdan keçilməsini qanun müəyyənləşdirəcək, tənzimləmə olacaq. Ölkənin böyük diasporu olduqda onunla hüquqi əlaqənin saxlanması vacibdir".

Aprelin 22-də Konstitusiya Komissiyası düzəlişlər layihəsini, maddələrin işçi versiyasını və alternativ təklifləri dəstəkləyib.

Layihə artıq Venesiya komissiyasına göndərilib. Bir aylıq umumi müzakirələrə başlanılacaq. Dəyişikliklər parlamentin payız sessiyasında təsdiqlənəcək.

## RUSİYA GÜRCÜSTAN VƏTƏNDAŞLARI ÜÇÜN VİZA REJİMİNİ NƏ ÜÇÜN LƏĞV ETMİR?

Rusiya Strateji Araşdırmalar İnstitutunun baş elmi işçisi Konstantin Tasits belə güman edir ki, terrorizmlə mübarizə sahəsində Gürcüstan-Rusiya əməkdaşlığının olmaması Gürcüstan vətəndaşları üçün viza rejiminin ləğv edilməsi işində Rusiya hakimiyyətinə mane olur.

O, deyib: "Terrorizm həm Rusiyaya, həm də Gürcüstana eyni dərəcədə təsir edir, üstəgəl, biz həmsərhəd olduğumuz vahid regiona malikik. Bu, Qafqazdır. Terrorizm isə Rusiya və Gürcüstan arasında viza rejiminin liberallaşdırılmasına mane olan əngəldir".

Hal-hazırda rusiyalılar Gürcüstana vizasız gələ bilirlər, ancaq gürcü vətəndaşları Rusiyaya səfər etmək üçün viza almalıdırlar. Gürcüstan və Rusiya arasında diplomatik münasibətlər Tbilisinin qərarı ilə Moskvanın Abxaziya və Sxinvali regionunun müstəqilliyini tanımasına cavab olaraq 2008-ci ilin avqustundan kəsilib.

2015-ci ilin dekabrında Rusiya Gürcüstanla sadələşdirilmiş vizasız rejimin tətbiq olunması barədə qərar qəbul edib. Yeni qaydalara görə, əlində dəvəti olan istənilən Gürcüstan vətəndaşı işgüzar, humanitar, işçi vizası (turist vizasından savayı) ala bilər. Dəvətnamə qohumluq dərəcəsindən asılı olmayaraq RF vətəndaşları tərəfindən rəsmiləşdirilir. 2016-cı ilin fevralından isə prosesi sürətləndirmək üçün dəvətin elektron forması tətbiq olunub.

## DİL PROBLEMİMİZİN QAYNAQLARI



Anaxanım VÜQAR

**Xalq, millət elə bir toplumdur ki, hakimiyyətə qul olmağı da, onu özünə qul etməyi də öz əlindədir. Bununla belə deyə bilərik ki, istənilən dövlətin hakimiyyət qurumlarına baxmayaraq, xalq dövlətin ən güclü silahıdır. O, öz dilini, dinini, adət-ənənə və mentalitetini elə təbliğ edər və ağrılı tərəflərini elə bərpa edər ki, nəinki itməz, hətta gələcək üçün belə itmə təhlükəsi olmaz. Yazıma mənsub olduğumuz etnosun gündəmdəki ağrılı tərəflərindən birini mövzu etmək istəyirəm.**

Əvvəlki yazımda da qeyd etdiyim kimi, məktəb təhsil ocaqları ilə müqayisədə ən əsası və önəmlisidir. Məktəbin nəinki insan həyatında, hətta bütöv bir xalqın həyatında rolu danılmazdır. Bununla belə düşünürəm ki, məktəbin dərs vəsaitlərinin, proqramlarının, mütəxəssislərinin səviyyəsi xalqın nəinki savadlı olub-olmamasını təmin edir, o, həm də xalqın taleyini həll edir.

Bəli, cəmiyyətimizin ağrılı tərəflərindən biri də elə budur. Uşaqların məktəbə qeydiyyatı ilə əlaqədar valideynlərdə problem halı almış bu mövzunu seçməkdə çox da düşünmədim. Səslənən fikirlərə əsasən hazırda bəzi valideynlər bir növ cəmiyyətimizdən qoparaq öz övladlarının marağını gürcüdilli məktəblərə yönəldirlər. İlk baxışda burada təəccüblü heç nə olmasa da, bir etnos olaraq biz daha da kiçilir, xalqımızın dilinə yabançı oluruq. Bu fikrim bizim dövlət dilini öyrənməli olmadığımız anlamına gəlməməlidir. Əksinə, biz gürcü dilini kamil səviyyədə, hətta gürcüdən də yaxşı bilməliyik. Amma bunu ana dilimizin hesabına etdikdə hamı, elə gürcülər də bizi qınamazmı?

Ancaq medalın digər üzünü analiz etsək, onsuz da ölkəmizdə milli azlıq olduğumuz halda bizi azalmağa sövq edənlərin, yox olma təhlükəsi ilə qarşı-qarşıya qoyanların yalnız valideynlər olmadığını görərik.

Hər məqamda razılaşmalı mövzudur ki, dil millətin mədəni irsidir, hər kəs mənsub olduğu xalqın dilini, ədəbiyyatını bilməlidir və heç bir insan öz dilini mükəmməl bilmədən, nəinki digər dilləri, elmləri belə öyrənə bilməz.

Valideynlərdə seçim problemini yaradan səbəblərdən biri dərs vəsaitləridir. Əgər ölkəmizdə azərbaycandilli məktəblər üçün hazırlanan dərsliklərə nəzər salsaq qaba tərcümə və keyifiyyət problemlərini aydın görə bilərik.

Müxtəlif, çoxsaylı təşəbbüslərə baxmayaraq, bu problem artıq uzun müddətdir ki, yaşamaqda davam edir. Kitabxanalarımızda Azərbaycan dili və ədəbiyyatına aid kitabların keçmişi tarixə dayanır. Bununla yanaşı Azərbaycanda nəşr edilən dərsliklərin ölkəmizə gətirilməsi qadağan edilib.

Zənnimcə, dilimizin itməsinə zəmin yaradan problemlərdən biri də müəllimlərin sertifikat imtahanlarında Azərbaycan dili və ədəbiyyatı müəllimlərinin sertifikatlaşmadan uzaq tutulmasıdır. Yəni burdan nəticə çıxara bilərik ki, Azərbaycan dili və ədəbiyyatı müəllimləri baş, mentor və ya aparıcı müəllim ola bilməyəcəklər.

Bununla belə dilimiz üçün ikinci bir problem yaranır. Və problem yalnız indi yaşamaqla yetinmir, gələcəyini də sığortalamış olur. Yəni bu gələcəkdəki Azərbaycan dili və ədəbiyyatı kadrlarının varlığını şübhə altına alır.

Kənar təsirlərdən əlavə, dilimizi məhdudlaşdıran amillər arasında özümüzün də müstəsna rol oynadığımızı düşünürəm. Hətta yaşadığımız dövlətin adət-ənənələrinə, qanun-qaydalarına o qədər öyrəşmişik ki, gürcü dili gününü xüsusi qeyd etməyimizə baxmayaraq, Azərbaycan dili gününün vaxtını belə bilmirik və ya bu günü heç müəyyənləşdirməmişik də.

Bunun üçün xüsusi təşəbbüslər göstərib, problemin qismən də olsa aradan qaldırılmasına kömək edə bilərik. Zənnimcə, məktəb buraxılış imtahanlarında Azərbaycan dili və ədəbiyyatı fənninin artırılması, şagirdləri ana dilimizə daha məsuliyyətli yanaşmağa sövq edər. Rəsmi orqanlardan cavab gəlmədiyi təqdirdə isə, ən azı azərbaycandilli məktəblərdə məktəbdaxili imtahanların götürülməsi məsələnin həllində mühüm rol oynaya bilər.

**Dil xalqı formalaşdıran ən başlıca amillərdən biridir. Hər bir xalq dilinin ölməməsi üçün öz dilini qorumağa və tanıtmağa borcludur. Hər bir dilin saflığı və danışanların sayı tamamilə xalqın özündən asılıdır.**

# KOSALI MƏKTƏBİNDƏ GÜRCÜ DİLİNƏ HƏSR OLUNMUŞ BAYRAM TƏDBİRİ KEÇİRİLDİ

*Mayın 4-də Qardabani rayonundakı Kosalı ictimai məktəbinin akt zalı bayram libasına bürünmüşdü. Həmin gün buraya toplaşanlar "Biz gürcü dilini sevirik!" adlı tədbirin həm tamaşaçıları, həm də iştirakçıları idilər. Tədbirin rəngarəng proqramı tamaşaçılara xoş anlar yaşatdı. Şagirdlərin hazırladığı bir-birindən maraqlı şeir parçaları, nəsr nümunələri, səhnəciklər hamının ürəyincə oldu. Uşaqların evdə, ailədə, küçədə və digər situasiyalarda gürcü dilinə necə münasibət bəslədiklərini sübut edən və məxsusi olaraq bu mərasim üçün hazırlanan videogörüntülərdən ibarət süjet də tamaşaçılar tərəfindən maraqla qarşılandı.*



Məktəbin şagirdlərinin hazırladığı "Biz gürcü dilini sevirik!" tədbirini izləmək üçün dəvət olunan qonaqlar arasında Barışıq və Vətəndaş Bərəabərliyi Dövlət naziri aparatının məsul işçisi Zaur Darğallı, Qardabani bələdiyyəsinin Şagird-Gənclər Mərkəzinin direktoru Natia Samxaradze, Qardabani Dostluq evinin direktoru Şəmistan Vəliyev və onun müavini Qəzənfər Qulamov, Yakob Qoqebaşvili adına Kvemo Kartli Regional Müəllimlər İttifaqının sədri Leyla Qeqeşidze də var idi.

Gürcü dilinə həsr olunmuş mərasimdə çıxış edən şagirdlərin – Türkan Osmanova, Dilək Əliyeva, Aygül Ömərova, Nurlan Mustafayev, İlkin Qasımov, Jalə Hüseynova, İnal Məmmədov, Şura Əliyeva, Elmina Əhmədova, Renat İskəndərov, Adil Abdullayev, Aytən Məmmədova, Zöhrə Abdullayeva, Səyalı Qaryağdıyeva, Səxavət Qaryağdıyev, Nuranə Qaryağdıyeva, Gülay Qasımova, Kamilə Əliyeva, Abdullah Əliyev, Fəridə Qədirova, Fəridə Məmmədova, Fərid Qədirov, Nurlan Sarıyev, Aygül Aslanova və Rəhman İsmayılovun çıxışları onların gürcü dilinə necə sevgi ilə yanaşmalarının ən gözəl təzahürü idi.

Mərasimin sonunda Şagird-Gənclər Mərkəzinin direktoru Natia Samxaradze məktəbdə fəaliyyət göstərən ədəbiyyat dərnəyinin fəallarına gürcü yazarlarının əsərlərinin disklərini hədiyyə etdi.

***Xatırladaq ki, tədbir məktəb rəhbərliyinin dəstəyi, Afayət Əliyevanın təşəbbüsü və təşkilatçılığı ilə hazırlanmışdı.***

Elsevər ƏHMƏDOV

# MƏKTƏBLƏRDƏ ZƏRƏRLİ QİDA MƏHSULLARININ SATIŞI QADAĞAN OLUNACAQ

Gürcüstan Təhsil və Elm Nazirliyi məktəb bufetlərində ziyanlı ərzaq məhsullarının satışını qadağan etmək niyyətindədir. Yaxın gələcəkdə məktəb yeməkxanalarında şokald, qazlı sular və digər məhsulların satışı dayandırılacaq. Ekspertlərin fikrincə, bu məhsullar uşaqların sağlamlığına zərər vurur.

Nazirliyin məlumatında bildirilir: "Gürcüstan Təhsil və Elm Nazirliyi məktəblərdə sağlam qidalanma sistemi tətbiq etmək məqsədilə metodiki tövsiyyələr hazırlayır. Bu tövsiyələr məktəblərdə zərərli qəlyanaltıların (çipsi, suxarik, marmelad), konfet, şokolad və qazlı içkilərin (qazlı mineral sular istisnadır) satışına qadağa qoyulmasına aiddir".

Nazirlikdə müntəzəm düzgün qidalanmanın şagirdlərin əhvalının yüksəlməsində və bunun da yeni materialın mənimsənilməsində və müvəffəqiyyət əldə olunmasında mühüm rol oynayacağına inanırlar.

Nazirlik azyaşlılar arasında düzgün qidalanmanın yayılması üçün böyük kampaniya keçirmək niyyətindədir.

# ŞAGİRDLƏRİMİZİN UĞURLARI BEYNƏLXALQ SƏVİYYƏDƏN GERİ QALIR

Gürcüstanın təhsil naziri Timss and Pirls beynəlxalq şirkətinin 2015-ci ilin nəticələrinə dair araşdırmasını elan edib. Beynəlxalq araşdırmaya əsasən, 2015-ci ildə Gürcüstanda ötən illərlə müqayisədə riyaziyyat və təbiətşünaslıq üzrə göstəricilər yüksəlsə də, Gürcüstanın nəticələri beynəlxalq səviyyədən nəzərəçarpacaq dərəcədə geri qalır.

Timss riyaziyyat və təbiətşünaslıq üzrə şagirdlərin uğurlarını öyrənən beynəlxalq araşdırmadır. Şirkətin məlumatına görə, dördüncü sinif şagirdlərinin 22%-i və səkkizinci sinif şagirdlərinin 28%-i riyaziyyat üzrə hətta minimal biliklərə malik deyil. Təbiətşünaslıq üzrə də təxminən eyni mənzərədir – dördüncülərin 26%-i, səkkizincilərin də 30%-i bu elmdən xəbərsizdir.

Pisa araşdırması isə yalnız tədris planında nəzərdə tutulan biliyi qiymətləndirmir, həm də onun təcrübədə istifadə olunmasını və məlumatlılığı araşdırır. 2000-ci ildən ildə bir dəfə şagirdlərin fəal və tamdəyərli ictimai həyata nə dərəcədə hazırlanmasını öyrənir. Nəticələrə görə, ölkəmizin şagirdlərinin yarısı təbiət elmləri üzrə baza biliklərinə malik deyil.

# AĞAMMƏDLI KƏNDİNDƏ QADINLAR KLUBU AÇILIB

**Marneuli Bələdiyyəsinin Ağammədli kəndində, "Vətəndaş Büdcəsi" bələdiyyə layihəsi çərçivəsində, yerli sakinlərin təşəbbüsü və fəallığı nəticəsində Qadınlar Klubu fəaliyyətə başlayıb.**

**Layihənin məqsədi icmada yaşayan xanımların ictiami həyatda fəallaşmasına dəstək olmaqdır. Kənddə yaşayan qadınların fəallığı, yerli və bələdiyyə səviyyəsində qərarların qəbulunda iştirakı cəmiyyət üçün çox mühümdür.**

**Sözügedən məkan müxtəlif təşəbbüs qrupları, yaxud qeyri-hökumət sektoru nümayəndələri tərəfindən görüş keçirilməsi, yeni layihələr planlaşdırılması və digər mühüm tədbirlər keçirmək üçün də istifadə oluna bilər.**

**Onu da qeyd etmək yerinə düşər ki, "Vətəndaş Büdcəsi" layihəsi həyata keçirilən zaman Qadın Klubunun açılması ideyasını Ağammədli kənd sakini Nərgiz Məmmədova irli sürüb. Klubun açılmasını əhalinin əksəriyyəti istəyirdi və onun açılıb fəaliyyətə başlaması üçün yerli büdcədən 14 200 lari ayrılıb.**

**Qeyd olunan klub kəndin Mədəniyyət Evində yerləşir. Burada Qadınlar Klubuna ayrılan sahədən əlavə yerli büdcə hesabına başqa təmir işləri də aparılıb. Binanın iki otağı tam təmir olunaraq, dam örtüyü dəyişdirilib, bunun üçün 66 750 lari xərclənib.**

**Təntənəli açılış mərasimində bələdiyyənin sədri Nəbi Abdullayev, icra başçısı Merab Topçişvili, onun müavini Akif Əliyev, özünüidarəetmənin əməkdaşları, bələdiyyədə çalışan qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak ediblər.**

**Marneuli bələdiyyəsinin icra başçısı Merab Topçişvili Ağammədli sakinləri ilə görüş də keçirib. İcra başçısı sakinlərin problemləri ilə maraqlanaraq, səlahiyyətləri çərçivəsində onların həllinə çalışacağını bildirib.**

**Turac İBRAHİMOVA**

# GÜRCÜSTANDA NADİR MAĞARA KLİNİKA AÇILIR

**Gürcüstanın Mühafizə olunan Ərazilər Agentliyinin və Çexiyanın Mağaralar Xidmətinin mütəxəssisləri tədqiqat nəticəsində aydınlaşdırıblar ki, Satsurbiliya mağarası nadir mikroiqlimə və bronxial astma, allergik xəstəliklər, bronxit və nəfəs yollarının digər xəstəliklərinin müalicəsində mühüm rola malikdir.**

**Satsurbiliya Sxaltubo rayonunda yerləşir. Mütəxəssislər mağarada aşkar olunan radioaktiv karbonun insan sağlamlığı üçün təhlükəli olmadığını, əksinə xeyirli olduğunu bildiriblər. Xüsusi mikroiqlim müxtəlif növ göbələklərin, yüksək rütubətin olmasını, toz və bitki tozcuqlarının yoxluğunu təmin edir.**

**Hazırda mağarada speleterapiya mühitinin layihələşdirilməsi başa çatıb. Yaxınlarda burada tikinti işlərinə başlanılacaq. Mağaranın abadlaşdırılması və müalicəxanaya çevrilməsi üçün dövlət büdcəsindən 600 min lari ayrılıb.**

**Mağarada uşaqlar üçün oyun meydançası, yataq zonası yaradılacaq. Bir seans üç saat, tam müalicə kursu isə 10 gün davam edəcək. Üç aydan sonra müalicəni yenidən təkrarlamaq olar.**

**Mütəxəssislər speleoterapiya məkanının açılmasından sonra ölkədə turistlərin sayının və tibbi turizmin inkişafa başlayacağını güman edirlər.**

**Satsurbliya mağarası 1976-cı ildə aşkarlanıb. Tbilisidən Sxaltuboya 257 kilometrdir.**

# ƏMƏYƏ CƏLB OLUNMUŞ UŞAQLARIN 63,9%-İ TƏHLÜKƏLİ İŞLƏR GÖRÜR



**Gürcüstanın xalq müdafiəçisi Uça Nanuaşvili "Qadın, məhdud imkanlı şəxslər və uşaq əməyi: problemlər və çağırışlar" debatında təxminən 63,9% , daha doğrusu 15 000-ə yaxın əməyə cəlb olunmuş uşağın təhlükəli işlər yerinə yetirdiyini bəyan edib.**

**Gürcüstan Milli Statistika Xidmətinin araşdırmalarına görə Gürcüstanda 5-17 yaşlı 571 000 uşaq yaşayır və onlardan 24 400 nəfəri uşaq əməyinə cəlb olunub. Onların böyük hissəsi, yəni 84%-i kəndlərdə yaşayır.**

**Ombudsmenin fikrincə, uşaqların yaşına və psxi-fiziki inkişaf səviyyəsinə uyğun gəlməyən işlər yerinə yetirmələrinin əsasını yoxsulluq təşkil edir.**

**Uça Nanuaşvili deyib: "Yetkinlik yaşına çatmamışlar sosial vəziyyətlərini yaxşılaşdırmaq məqsədilə mövsümi olaraq kifayət qədər ağır işlər görməli olurlar. Buradaca qeyd olunmalıdır ki, ailədə mövsümi işləri yerinə yetirmək üçün uşaqlar məktəbi atır, dərsləri buraxırlar".**

# AĞ DABOKLU NAMİQİN HEKAYƏTİ



Sizə haqqında danışmaq istədiyim bu gənclə tanışlığım təsadüfən oldu. Martın 5-də Tiflisdə baş tutdu bu tanışlığımız. Sadəliyi, təvazökarlığı ilə diqqətimi cəlb etdi. Atoneli teatrında Anar Rafiqoğlunun tamaşasını yenicə seyr edib bayıra çıxmışdıq, teatrın həyətində bölük-bölük toplaşıb tamaşa barədə rəylərini bildirən, təəssüratlarını bölüşən və ya ordan-burdan söhbətləşənlərin bir dəstəsi də biz idik. Yadımdadır Rafiq Hümbət, Əhməd İmamquliyev, Kamuran, "Nəğd pul" rep qrupunun solisti Afiq Novruzov, bu sətirlərin müəllifi və sizə tanıtmaq istədiyim həmin o gənc bir kənara çəkilib ürəyimizi xeyli boşaltdıq.

Bizimlə birlikdə dayanan, söhbətimizə müdaxilə etməyən o gənci məhz onda tanıdım və söhbət əsnasında, sırf təsadüf nəticəsində onun dünya miqyaslı bir idmançı olmasını məhz onda bildim. Və nə gizlədim, belə bir gəncimizin varlığından xəbərsizliyimə görə, bir az özümü qınadım da. Sözün qısası, onun ömür yolu ilə sizləri də tanış etməyi həm özümün insanlıq borcum, həm də məsləyimin tələbi kimi yerinə yetirməyi qərara aldım. Gəlin birlikdə onun ömür yoluna, idmanda qazandığı uğurlara birlikdə nəzər yetirək və lazım gəldikdə belə gənclərə yardım etməyi, dayaq durmağı da yaddan çıxarmayaq.

Qəhrəmanımızın adı Namiqdir, Namiq Füzuli oğlu Kərimov. Namiq üzü yaza doğru, 1986-cı il martın 13-də Marneuli şəhərində dünyaya göz açıb, burada böyüyüb, elə burada da məktəbə gedib. O, Marneuli 2 saylı ictimai məktəbində təhsil alıb. Gürcüstan Gömrük Akademiyasında ali təhsil alsa da, iş tapa bilməyib, ixtisası üzrə işləməyib. Namiq idmançı karyerasına da Marneulidə başlayıb, idmançı kimi ilk addımlarını da bu şəhərdə atıb, tatami üzərinə də ilk dəfə elə öz doğma şəhərində çıxıb.

Namiq 1998-ci ildə 12 yaşından Koreya döyüş sənəti olan taekvondonun sirlərinə vaqif olmaq üçün məşqçi Faiq Məmmədovun yanına gəlir. Və elə o vaxtdan da paklıq və təmizlik rəmzi olan dabok geyərək bu Şərq döyüş sənətinin sirlərini öyrənməyə aludə olur, bu gün də bu sənətin sehrindən uzaqlaşmağı ağlına belə gətirmir, taekvondo az qala onun taleyinə çevrilir. Təsadüfi deyil ki, könlünü bu idman növünə qapdıran Namiq Kərimov 20 ilə yaxındır taekvondoçudur.

Oxucularımız üçün də maraqlı olacağını nəzərə alıb demək istəyirəm ki, Namiqin könül bağladığı taekvondonun xarakterik xüsusiyyəti döyüşdə həm ayaqlardan, həm də əllərdən geninə-boluna istifadə olunmasıdır. "Taekvondo" əslində 3 sözdən ibarət mürəkkəb bir anlayışdır: "the" — ayaq, "kvon" — yumruq (əl), "-do" — sənət. Bax, Namiq belə bir döyüş növünü seçib və kifayət qədər uğura imza atmağı bacarıb. O, irili-xırdalı onlarla yarışmanın iştirakçısı olub. Bu yarışmalarda qalib gələrək, çempionluq sevincini yaşayıb. Fikrimcə, Namiqin nüfuzlu bir idmançı olmasını təsdiqləmək üçün burada təkcə onun qalib gəldiyi turnirlərin adını sadalamaq kifayət edər. Namiq nə az, nə çox doqquz qat Gürcüstan çempionluğunu yaşayıb, dörd dəfə Azərbaycan çempionu olmağı bacarıb. 12 dəfə isə müxtəlif beynəlxalq turnirin qalibi olmaq şərəfinə nail olub.

Namiqin ən böyük uğuru 2005-ci ildə taekvondo üzrə Kiprdə keçirilən dünya çempionatında olub. Belə ki, rəqiblərinə şans buraxmayan döyüşçü fəxri kürsünün ən yüksək pilləsinə qalxaraq, dünya çempionatının qızıl medalına layiq görülüb, Gürcüstanın bayrağını dalğalandırıb.

Biz Namiqlə tanış olub, söhbətləşəndə növbəti Avropa çempionatına hazırlaşdığını söylədi. Gənc qəhrəmanımızın yeni-yeni uğurlar qazanacağına, yeni-yeni çempionluq sevincləri yaşayacağına böyük ümidlər bəsləyərək, bu kiçik qeydlərimi yekunlaşdırıb, nöqtə qoyuram.

A.M. DƏLİVƏLOĞLU

# ZABİT SƏMƏDOVDAN DAHA BİR QƏLƏBƏ

Azərbaycanın məşhur kikboksçusu Zabit Səmədov növbəti görüşünü keçirib.

33 yaşlı idmançı belçikalı Məhəmməd Malik Sinistra ilə üz-üzə gəlib.

Gebze İdman Sarayında baş tutan qarşılaşma Zabit Səmədovun ikinci raundda qazandığı qələbə ilə yekunlaşıb. Belə ki, rəqib ikinci raundda sağ ayağından aldığı ciddi zədə üzündən döyüşü davam etdirə bilməyib. Qarşılaşmanın hakimi döyüşü Zabit Səmədovun xeyrinə dayandırıb.



Xatırladaq ki, məşhur kikboksçu əslən Gürcüstandandır, Qardabani rayonunun Candar kəndindəndir. Dünya miqyaslı yarışlarda Azərbaycan bayrağı altında çıxış edir.

# İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ İTKİN DÜŞMÜŞ 84 GÜRCÜSTANLI ƏSGƏRİN CƏNAZƏSİ AŞKARLANIB

Veteranların işi üzrə Dövlət xidməti ikinci dünya müharibəsində itkin düşmüş və axtaişlar zamanı meyitləri aşkarlanan 84 əsgərin siyahısını dərc edib. Gürcüstan veteranlar xidmətində bildiriblər ki, Qorki (Nijni Novqorod) qospitalında ölənlərin siyahısını "Kurqan" axtarış dəstəsinə veriblər.

Siyahıda adları heç bir yerdə çəkilməyən və ya itkin düşmüş hesab edilən gürcü döyüşçüləri barədə məlumatlar da var. Onların qohumları indiyədək öz yaxınlarının taleyi barədə heç nə bilmirlər. Əsgərlərin meyitlərini aşkarlayanlar siyahıda səhvlərin ola biləcəyini istisna etmirlər. Əgər soyad, ad və coğrafi adlarda səhvlər varsa, məlumat verməyi xahiş edirlər.

"Yeni Yol" olaraq bildirək ki, Nijni Novqorodda dəfn olunmuş 20 nəfər əsgərin arasında soydaşlarımızın adına və yaşadığı bölgəyə rast gəlmədik.

1942-ci il 23-26 mart tarixində Kuvşinovo-Pitomnik rayonunda itkin düşmüş gürcü əsgərlərinin meyitləri də tapılıb. Kuvşinovo kəndindəki hərbi aerodromda 1942-ci ildə xeyli əsgər həlak olub. Əgər siyahıda öz qohumlarınızın adına rast gəlibsinizsə, onda "Qələbənin varisləri" beynəlxalq təşkilatı ilə 0322 64 87 72 telefonu və ya Olegi. jolia@gmail.com elektron poçt ünvanı vasitəsilə əlaqə saxlayın.

Kimlərisə sevindirə biləcəyimiz ümidilə, Kuvşinovo siyahısında adı çəkilən iki nəfər barədə məlumatları təqdim edirik. Bunlardan biri Nəzərov Açxal Süleymanoviçdir (1909-cu il doğumlu, Marneuli rayonu). Bu siyahıda ikinci diqqətimizi çəkən isə Borçalı rayonundan 1909-cu il təvəllüdlü Kazarov Tatumi Muşeloviç adlı əsgər oldu. Ola bilsin ki, ikinci şəxsin soyadı, adı, atasının adı təhrif olunub və ya o, azərbaycanlı deyil, başqa xalqın nümayəndəsidir.

# PARLAMENT SƏDRİNƏ QARŞI İNSİDENT BAŞ VERİB

Ölkə konstitusiyasına ediləcək dəyişikliklərlə bağlı iclasda insident baş verib.

Bir qrup gənc kommunist Gürcüstan parlamentinin sədri İrakli Kobaxidzenin tədbiri açmasını səs-küylə qarşılayıb.

Parlament sədri belə vəziyyətdə müzakirələrin aparılmasını təxribat adlandırıb və bu formatda görüşün keçirilməsini qeyri-mümkün hesab edib.

İrakli Kobaxidze baş verənləri dəyərləndirərkən bunları deyib: "Çavçavadze ölkəsində kommunistlərə yer yoxdur. Mən sizə İlya Çavçavadze yolunda, maarif yolunda durmağı arzulayıram. Gürcüstanda heç vaxt kommunistlərə yer olmayacaq".

# BEYNƏLXALQ ZƏNGLƏRLƏ BAĞLI FIRILDAQÇILIQ FAKTLARI AŞKARLANIB

Gürcüstan Maliyyə Nazirliyinin İstintaq Xidmətitelefon rabitəsilə bağlı növbəti fırıldaqçılıq faktlarının aşkarlanması barədə məlumat yayıb.

Fırıldaqçılar xüsusi qurğunun köməyi ilə beynəlxalq zəngləri daxili zənglərə çevirərək, zəngin dəyərindəki fərqi mənimsəyiblər.



Cinayət sxemi Maliyyə Nazirliyinin İstintaq Xidməti və Dövlət Təhlükəsizliyi Xidmətinin əks-kəşfiyyat əməkdaşları tərəfindən aşkarlanıb. Hüquq mühafizəçiləri Tbilisi və Batuminin müxtəlif yaşayış binalarında qanunsuz quraşdırılmış səkkiz "Simbox" elektron qurğunu zərərsizləşdiriblər.

Məlumatda deyilir: "Cinayət qruplaşmalarının üzvləri beynəlxalq zəngləri yerli zənglərə çevirməklə, daxil olan zənglərin tariflərini süni şəkildə dəyişmiş və dövlət büdcəsinə və telefon kommunikasiyaları sahəsində çalışan şirkətlərə böyük zərər vurmuşlar".

Məlumatda ümumilikdə 21 qurğunun aşkarlandığı bildirilir. Martın ortalarında hüquq mühafizəçiləri Gürcüstanda bu qurğuların quraşdırılması ilə məşğul olan cinayət qruplarının movcudluğu barədə məlumat yaymışdılar.

# GÜRCÜSTANDA SAXTA BİR LARİLİK SİKKƏLƏR DAHA ÇOX HAZIRLANIR

Gürcüstan Milli Bankı öz hesabatını yayıb. Hesbata əsasən, 2016-cı ildə 5,2 min saxta əskinas və 15,6 min saxta sikkə lari aşkarlanıb.

Milli Bank hər il ölkə parlamentinə əsas istiqamətlər üzrə görülən işlərin yekunlarına və ölkənin əsas makroiqtisadi göstəricilərinin qiymətləndirilməsinə dair hesabat təqdim edir.

Daha çox bir larilik saxta sikkələr hazırlanır. İkinci pillədə 20 lari, üçüncü pillədə isə 50 lari dəyəri olan saxta əskinaslar düzəldilir.

2 larilik saxta sikkələrə və 5 larilik saxta əskinaslara daha az təsadüf olunur.

Milli Bank xarici valyutaların saxtalaşdırılmasına da diqqət yetirir. 2016-cı ildə 707 saxta dollar və 116 saxta avro əskinasları aşkarlanıb.

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 may 2017-cı il
№009 (47)

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / "იენი იოლი" საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## 35 YAŞLI TÜRK QIZI ABŞ-DA BANK SƏDRİ SEÇİLDİ



Əslən türk olan 35 yaşlı Hafizə Qaya Erkan 3 il əvvəl ABŞ-da fəaliyyət göstərən "First Republic Bank"-da işə başlayıb. O, mayın 11-də 3 ildir əməkdaşı olduğu bu bankın sədri seçilib.

35 yaşlı Hafizə Qaya Erkan ABŞ-ın ən gənc maliyyə professoru olub və ABŞ-da onu "Müthiş türk qızı" ləqəbi ilə tanınyırlar.

Əsası 1985-ci ildə qoyulan "First Republic Bank"-da 3 il əvvəl işləməyə başlayan Hafizənin bu qədər qısa vaxtda belə bir posta yüksəlməsi çoxları üçün gözlənilməz olub.

32 illik tarixi olan ABŞ bankına sədr seçilən 35 yaşlı Hafizə bir neçə gündür ki, dünya mediyasının gündəmini zəbt edib.

## DÜNYANIN ƏN AĞILLI İNSANI MÜƏYYƏNLƏŞDİRİLDİ

İngiltərədə həyata keçirilin İQ testindən sonra 12 yaşlı hindistanlı qız Rajqori Pavarın dünyanın ən ağıllı insanı olduğu ortaya çıxıb.



Bu qızcığazın İQ dərəcəsi 162 olub. Bu vaxta qədr isə dünyanın ən ağıllı insanları hesab olunan Albert Eynşteyn və Stepan Havkinqin İQ göstəricisi 160 idi. 12 yaşlı bir uşağın birdən-birə bu dərəcəni göstərməsi bütün elm adamlarını heyrətləndirib. Artıq İngiltərədə Rajqori Pavara böyük maraq yaranıb. İngiltərəli alimlərin sözlərinə görə, bu uşaq gələcəkdə indiki insanların ağıllarına gətirə bilməyəcəkləri şeyləri kəşf edə bilər.

## ƏN ÇOX SPİRTLİ İÇKİ İÇƏN ÖKƏLƏRİN SİYAHISI AÇIQLANIB

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Avropada əhalisi ən çox spirtli içkidən istifadə edən ölkələrlə bağlı araşdırma aparıb. Araşdırmanın nəticələri gözlənilməz olub.

Araşdırma zamanı məlum olub ki, Moldova hər il adambaşına 10 litr alkoqollu içki qəbul etməklə Avropada birinci yerdədir. İkinci pillədə Lüksemburq, üçüncü pillədə isə Estoniya qərarlaşıb. Əhalisinin ən çox içki içdiyi düşünülən Rusiya isə ilk onluqda deyil, 20-ci sırada yer alıb. ÜST-ün hesabatına görə, son illərdə rusların üçdə ikisi alkoqollu içkidən istifadəyə son qoyub. Həm də artıq içki içən ruslar belə sərt alkoqollu içkiləri sevmir, bahalı alkoqollu içkilərə üstünlük verirlər. Rusiyanın siyahıdakı qonşuları Danimarka, Xorvatiya və Böyük Britaniya olub.

ÜST-ün hesabatında Türkiyə ən az alkoqollu içki içilən ölkələrdən biri olaraq göstərilib. Norveç, İsveç və İslandiya kimi Skandinaviya ölkələri də siyahının aşağı pillələrində yer alıb.

## ÇİNLİ ALİMLƏR HAVADAN BENZİN ALMAĞI BACARDILAR

Çinli alimlər nanotexnologiyalar vasitəsilə havanı benzinə çevirə biliblər.

Çinin Kimyəvi Fizika İnstitutunun laboratoriyalarında alimlər tərəfindən katalizator vasitəsilə havadan yanacaq hasil edilib.

Xüsusi qurğu karbon qazını və hidrogeni benzinin analoqu hesab edilən karbohidrogen qarışığına çevirir.

Xatırladaq ki, bundan əvvəl ABŞ-da hazırlanan katalizatorların istifadə müddəti az idi. Çin alimləri isə dəmir əsaslı nanotexnologiyaların vasitəsi ilə daha davamlı katalizator hazırlayıblar.

## GÜRCÜSTANDAN MÜHACİRLƏRƏ KİTAB GÖNDƏRİLƏCƏK



Arzu edənlər "Gürcüstan Gənc Hüquqşünaslar Assosiasiyası"nın aksiyasında iştirak edə bilərlər.

"Gürcüstan Gənc Hüquqşünaslar Assosiasiyası" "Mühacirlər üçün Gürcüstandan kitablar" kampaniyasına start verib. Kampaniya çərçivəsində xaricdə yaşayan həmvətənlərə gürcü kitabxanası açmaqda köməklik göstərmək nəzərdə tutulur.

Kampaniyanın məqsədi mühacirlərə göndərmək üçün kitablar saxlanılan yer yaratmaqdan ibarətdir. Mühacirlərin dünyanın dörd bir tərəfində açacaqları yerlər təkcə gürcü kitablarının oxunduğu yer olmayacaq, həm də onların görüş yerinə çevriləcək.

"Gürcüstan Gənc Hüquqşünaslar Assosiasiyası"nın bu təşəbbüsünə parlament nümayəndələri, ictimai xadimlər, yazıçılar, idmançılar və biznesmenlər də qoşulublar.

Bu ideya QHT nümayəndələrinin xaricdə keçirdikləri görüşlərdən və Türkiyə, Polşa, Ukrayna, Yunanıstan və İtaliyada yaşayan mühacirlərin kitabxana yaratmaq və ya zənginləşdirmək arzusunu bildirmələrindən sonra ortaya çıxıb.

Arzu edənlər kitabları "Gürcüstan Gənc Hüquqşünaslar Assosiasiyası"nın Gürcüstandakı istənilən filialına gətirə bilərlər.

## FRANSADA ARIQLARI İŞLƏTMƏYƏ GÖRƏ HƏBS CƏZASI NƏZƏRDƏ TUTULUR



Fransada həddindən çox arıq olan manikenlerin işləmələrini qadağan edən qanun qüvvəyə minib.

Fransa Səhiyyə Nazirliyi bu qanun layihəsinin qidalanmanın pozulması və "nail olunmayan gözəllik idealları" ilə mübarizə məqsədi daşıdığını bildirib.

Həkimlər manikenlərin boyuna, çəkisinə və vücuduna baxaraq onların həddindən artıq arıq olub, olmadıqlarına qərar verəcəklər. Normadan aşağı çəkiyə sahib olan manikenləri işlədənləri 6 aya qədər həbs və 75 min avro cərimə gözləyir. Oktyabrın 1-dən manikenləri daha arıq göstərərən şəkillərin təqdim olunmasına da qadağa qoyulacaq.

Xatırladaq ki, daha əvvəl İtaliyada, İspaniyada və İsraildə də buna bənzər qanun qəbul edilib.

Fransada anoreksiyanın (kökəlmədən əsassız qorxu hissi, eyni zamanda arıqlamağa güclü və dayanıqlı meyllə səciyyələnən qida qəbulu pozuntusudur – red.qeydi) təbliği çox insanlara təsir edib.

## BAŞSAĞLIĞI

Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının və "Yeni Yol" qəzetinin kollektivi Hacı Rizvan Qəhrəmanova həyat yoldaşı

**Qəhrəmanova Minayə İsmayıl qızının**

vəfatından kədərləndiyini bildirir, mərhumənin yaxınlarına və doğmalarına dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

---

Kosalı ictimai məktəbinin pedaqoji kollektivi, Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının əməkdaşları Pərvanə Hüseynovaya qardaşı

**İsmayılov Həvillah Osman oğlunun**

vəfatından kədərləndiyini bildirir, mərhumun yaxınlarına və doğmalarına dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

**Təsisçi:**
**"Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı"**

***Redaktor*: Afiq Muxtaroğlu**
***Yayım Direktoru*: Hacı Bəkiroğlu**

*ÜNVAN:* Qardabani şəh. Kolxoz küç, 4
*TEL:* (+995) 595 92 25 70
599 54 12 92
*EMAİL:* yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.